AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 18.05.2018 |
| Qeydiyyat nömrəsi | 29 |
| Adı | "Pulsuz müalicə-profilaktik yeməklərin rasionu və vitaminli preparatların tərkibi"nin təsdiq edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 02.06.2018 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 220.050.020 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201805180029 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 01.06.2018 |

"İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi üçün zərərli, ağır və yeraltı əmək şəraitli istehsalatların Siyahısı"nın və "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 dekabr tarixli 550 nömrəli Qərarının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Pulsuz müalicə-profilaktik yeməklərin rasionu və vitaminli preparatların tərkibi" təsdiq edilsin (əlavə olunur).

2. Hüquq və daxili nəzarət sektoruna (E.Əzizov) tapşırılsın ki, Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Qərarın icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Oqtay Şirəliyev**

Kollegiyanın məsul katibi vəzifəsini müvəqqəti icra edən Səbinə Əhmədova

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 18 may 2018-ci il tarixli 29 nömrəli Qərarı ilə təsdiq edilmişdir

## Pulsuz müalicə-profilaktik yeməklərin rasionu və vitaminli preparatların tərkibi

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 dekabr tarixli 550 nömrəli qərarı ilə təsdiq edilmiş "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi üçün zərərli, ağır və yeraltı əmək şəraitli istehsalatların Siyahısı"nda göstərilən istehsalat sahələrində çalışan işçilərə iş yerlərinin attestasiyasının nəticələri əsasında aşağıdakı müalicə-profilaktik yeməklər və vitaminli preparatlar təyin olunur:

1.1. **1 nömrəli müalicə-profilaktik yeməklərin rasionu**

| Məhsulun adı | Gündəlik norma, qramla | Məhsulun adı | Gündəlik norma, qramla |
|---|---|---|---|
| Çovdar çörəyi | 100 | Xama | 10 |
| Buğda unu | 10 | Pendir | 10 |
| Kartof unu | 1 | Kərə yağı | 20 |
| Yarma, makaron | 25 | Bitki yağı | 7 |
| Paxlalılar | 10 | Kartof | 160 |
| Şəkər | 17 | Kələm | 150 |
| Ət | 70 | Tərəvəzlər | 90 |
| Balıq | 20 | Tomat-püre | 7 |
| Qara ciyər | 30 | Təzə meyvələr | 130 |
| Yumurta | 3/4 ədəd | Təzə giləmeyvələr | 5 |
| Qatıq, yağlığı 3,5%-dən az olmayan | 200 | Suxari | 5 |
| Süd, yağlığı 2,5%-dən az olmayan | 70 | Duz | 5 |
| Kəsmik, yağlığı 9%-dən az olmayan | 40 | Çay | 0,4 |
| Məhsulların kimyəvi tərkibi | | | |
| Məhsulların kimyəvi tərkibi | | Rasionda miqdarı | |
| Zülallar, qr | | 59 | |
| Yağlar, qr | | 51 | |
| Karbohidratlar, qr | | 159 | |

**Vitaminli preparatlar:**

C vitamini (askorbin turşusu) - 150 mq

1.2. **2 nömrəli müalicə-profilaktik yeməklərin rasionu**

| Məhsulun adı | Gündəlik norma, qramla | Məhsulun adı | Gündəlik norma, qramla |
|---|---|---|---|
| Buğda çörəyi (2-ci növ undan) | 100 | Bitki yağı | 13 |
| Çovdar çörəyi | 100 | Ət | 150 |
| Buğda unu (2-ci növ) | 15 | Balıq | 25 |
| Yarma, makaron | 40 | Qara ciyər | 25 |
| Kartof | 100 | Kərə yağı | 15 |
| Tərəvəzlər (kələm) | 150 | Süd, yağlığı 2,5%-dən az olmayan və ya Qatıq, yağlığı 3,5%-dək olan | 200 |
| Yaşıl noxud | 10 | Pendir (yağlığı 30%-dək) | 25 |
| Tomat-püre | 2 | Yumurta | 1/4 ədəd |
| Şəkər | 35 | Çay | 0,5 |
| | | Duz | 5 |
| Məhsulların kimyəvi tərkibi | | | |
| Məhsulların kimyəvi tərkibi | | Rasionda miqdarı | |
| Zülallar, qr | | 63 | |
| Yağlar, qr | | 50 | |
| Karbohidratlar, qr | | 185 | |

**Vitaminli preparatlar:**

A vitamini - 2 mq

C vitamini (askorbin turşusu) - 100 mq

1.3. **2a nömrəli müalicə-profilaktik yeməklərin rasionu**

| Məhsulun adı | Gündəlik norma, qramla | Məhsulun adı | Gündəlik norma, qramla |
|---|---|---|---|
| Buğda çörəyi (2-ci növ undan) | 100 | Şəkər | 5 |
| Çovdar çörəyi | 100 | Bitki yağı | 20 |

| | | | |
|---|---|---|---|
| Buğda unu (2-ci növ) | 6 | Kərə yağı | 13 |
| Yarma (darı yarması, düyü, qarabaşaq) | 15 | Dana əti (2-ci kateqoriya) | 81 |
| Kartof | 120 | Qara ciyər, ürək | 40 |
| Tərəvəzlər (kələm, kök) | 274 | Xama (yağlığı 10%) | 32 |
| Təzə meyvələr və şirələr | 73 | Kəsmik (yağlığı 9%-dək) | 71 |
| Quru meyvələr (üzüm, ərik, qara gavalı) | 7 | Qatıq, yağlığı 3,5%-dək olan və ya Süd, yağlığı 2,5%-dən az olmayan | 156 |
| | | Duz | 4 |
| Məhsulların kimyəvi tərkibi | | | |
| Məhsulların kimyəvi tərkibi | | Rasionda miqdarı | |
| Zülallar, qr | | 52 | |
| o cümlədən heyvan mənşəli, qr | | 34 | |
| Yağlar, qr | | 63 | |
| o cümlədən bitki mənşəli, qr | | 23 | |
| Karbohidratlar, qr | | 156 | |

**Vitaminli preparatlar:**

A vitamini - 2 mq

C vitamini (askorbin turşusu) - 100 mq

PP vitamini (niasin) - 15 mq

U Vitamini (S-metilmetionin) - 25 mq

Mineral su (mineralizasiyası 2 - 3 qr/l-dən çox olmayan) - 100 ml

1.4. **3 nömrəli müalicə-profilaktik yeməklərin rasionu**

| Məhsulun adı | Gündəlik norma, qramla | Məhsulun adı | Gündəlik norma, qramla |
|---|---|---|---|
| Buğda çörəyi | 100 | Süd, yağlığı 2,5%-dən az olmayan | 70 |
| Buğda unu | 10 | Qatıq, yağlığı 3,5%-dən az olmayaraq | 200 |
| Yarma, makaron | 25 | Kəsmik (yağlığı 9%-dək) | 40 |
| Paxlalılar | 10 | Xama (yağlığı 10%) | 10 |
| Kartof | 160 | Pendir | 10 |
| Kələm | 150 | Yumurta | 3/4 ədəd |
| Tərəvəzlər | 90 | Ət | 70 |
| Tomat-püre | 7 | Balıq | 20 |
| Təzə meyvələr | 130 | Qara ciyər | 30 |
| Təzə giləmeyvələr | 5 | Suxari | 5 |
| Şəkər | 17 | Duz | 5 |
| Bitki yağı | 7 | Çay | 0,4 |
| Kərə yağı | 20 | | |
| Məhsulların kimyəvi tərkibi | | | |
| Məhsulların kimyəvi tərkibi | | Rasionda miqdarı | |
| Zülallar, qr | | 59 | |
| Yağlar, qr | | 51 | |
| Karbohidratlar, qr | | 159 | |

**Vitaminli preparatlar:**

C vitamini (askorbin turşusu) -150 mq

Qeyd: Bu rasionda qeyd olunanlarla yanaşı termik emaldan keçməmiş tərəvəzlərdən hazırlanmış yeməklər də (salatlar, və s.) gündəlik verilməlidir.

1.5. **4 nömrəli müalicə-profilaktik yeməklərin rasionu**

| Məhsulun adı | Gündəlik norma, qramla | Məhsulun adı | Gündəlik norma, qramla |
|---|---|---|---|
| Buğda çörəyi | 100 | Ət | 100 |
| Çovdar çörəyi | 100 | Balıq | 50 |

| | | | |
|---|---|---|---|
| Buğda unu | 15 | Kərə yağı | 15 |
| Yarma, makaron | 15 | Süd, yağlığı 2,5%-dən az olmayan və ya Qatıq, yağlığı 3,5%-dək olan | 200 |
| Kartof | 150 | Xama (yağlığı 10%) | 20 |
| Tərəvəzlər | 25 | Kəsmik (yağlığı 9%) | 110 |
| Tomat-püre | 3 | Yumurta | 1/4 ədəd |
| Şəkər | 45 | Duz | 5 |
| Bitki yağı | 10 | Çay | 0,5 |
| Məhsulların kimyəvi tərkibi | | | |
| Məhsulların kimyəvi tərkibi | | Rasionda miqdarı | |
| Zülallar, qr | | 59 | |
| Yağlar, qr | | 51 | |
| Karbohidratlar, qr | | 159 | |

**Vitaminli preparatlar:**

C vitamini (askorbin turşusu) - 150 mq

B1 vitamini (tiamin) - 4 mq (arsen, fosfor, civə və tellur ilə çalışanlar üçün)

1.6. **5 nömrəli müalicə-profilaktik yeməklərin rasionu**

| Məhsulun adı | Gündəlik norma, qramla | Məhsulun adı | Gündəlik norma, qramla |
|---|---|---|---|
| Buğda çörəyi | 100 | Balıq | 35 |
| Çovdar çörəyi | 100 | Qara ciyər | 25 |
| Buğda unu | 3 | Kərə yağı | 17 |
| Yarma və makaron | 20 | Süd, yağlığı 2,5%-dən az olmayan və ya Qatıq, yağlığı 3,5%-dək olan | 200 |
| Kartof | 125 | Xama (yağlığı 10%) | 10 |
| Tərəvəzlər | 100 | Kəsmik (yağlığı 9%-dək) | 35 |
| Tomat-püre | 3 | Yumurta | 1 ədəd |
| Şəkər | 40 | Duz | 5 |
| Bitki yağı | 15 | Çay | 0,5 |
| Ət | 100 | | |
| Məhsulların kimyəvi tərkibi | | | |
| Məhsulların kimyəvi tərkibi | | Rasionda miqdarı | |
| Zülallar, qr | | 58 | |
| Yağlar, qr | | 53 | |
| Karbohidratlar, qr | | 172 | |

**Vitaminli preparatlar:**

C vitamini (askorbin turşusu) - 150 mq

B1 vitamini (tiamin) - 4 mq

2. Rasionlarda nəzərdə tutulmuş müalicə-profilaktik yeməklər bişirilmiş və buxara verilmiş, həmçinin pörtlədilmiş (ilkin qovurulmamış) halda hazırlanmalıdır.